**Bakı Dövlət Universiteti üzrə 11 fevral 2019-cu il tarixli, R-17 saylı əmrə əsasən "Elm günü"nə həsr olunmuş müsabiqə keçiriləcəkdir.**

Müsabiqə aşağıdakı qaydalara uyğun təşkil ediləcəkdir:

1. Bu müsabiqədə yalnız hal-hazırda Bakı Dövlət Universitetində çalışan əməkdaşlar iştirak edə bilərlər;
2. Müsabiqədə iştirak edəcək namizədlər uyğun **Müraciət formasını** doldurmalı və öz imzaları ilə təsdiq etməlidirlər (Bax: Əlavə 4);
3. **Təbiət elmləri** sahəsində tədqiqatlar aparan namizədlər müsabiqədə aşağıdakı nominasiyalar üzrə iştirak edə bilərlər:

3.1. "**Ən məhsuldar müəllif**" - Web of Science bazasının, SCI-Exp indeksli jurnallarında çap olunmuş məqalələrin sayına görə (Correction, Comment, Conference Proceedings kimi nəşrlər nəzərə alınmır) (Bax: Əlavə 1);

3.2. "**Ən çox istinad edilən müəllif**" - Web of Science bazasının, SCI-Exp indeksli jurnallarında çap olunmuş məqalələrə yalnız həmin bazadakı istinadların sayına görə (Correction, Comment, Conference Proceedings kimi nəşrlərə istinadlar nəzərə alınmır) (Bax: Əlavə 2);

3.3. "**Ən yüksək h-indeksli müəllif**" - Web of Science bazası tərfindən müəyyən olunan h-indeksə görə (Correction, Comment, Conference Proceedings kimi nəşrlər nəzərə alınmır) (Bax: Əlavə 3);

4. **Humanitar elmləri** sahəsində tədqiqatlar aparan namizədlər Web of Science bazasının, SSCI və A&HCI indeksləri olan jurnallarda çap olunmuş məqalələrin sayına görə (Correction, Comment, Conference Proceedings kimi nəşrlər nəzərə alınmır);
5. **35 yaşı tamam olmamış elmi tədqiqatçılar** arasında Web of Science bazasının, SCI-Exp, SSCI və A&HCI indeksləri olan jurnallarda çap olunmuş məqalələrin sayına görə (Correction, Comment, Conference Proceedings kimi nəşrlər nəzərə alınmır);

6. Əməkdaşların məlumatlandırılması uyğun struktur rəhbərləri (Dekanlar, Elmi Tədqiqat İnstitutlarının rəhbərləri və s.) tərəfindən həyata keçirilir. Müraciət formaları 1 mart 2019-cu il tarixinə qədər uyğun struktur rəhbərləri tərəfindən toplanaraq Cəbr və həndəsə kafedrasının əməkdaşı Vüsalə Qasımovaya təqdim edilməlidir (Yeni tədris korpusu, 517 saylı otaq);
7. Qalib iştirakçılar mükafatlandırılacaqlar.

***Əlavə 1.*** "**Ən məhsuldar müəllif**" nominasiyası üzrə müəllif məqaləsinin qiymətləndirilməsi (MQ) qaydası:

$$MQ=\frac{30\text{ bal}}{\text{Müəlliflərin sayı}}+\begin{cases}3\text{ bal } (1\text{-ci müəllif});\\ 2\text{ bal } (2\text{-ci müəllif});\\ 1\text{ bal } (3\text{-cü müəllif});\\ 0\text{ bal } (\text{digər müəlliflər}).\end{cases}$$

Tək müəllifili məqalələr 30 balla qiymətləndirilir.

***Əlavə 2.*** "**Ən çox istinad edilən müəllif**" nominasiyası üzrə hər istinadın qiymətləndirilməsi (İQ) qaydası:

$$\dot{I}Q=\frac{30\text{ bal}}{\text{Müəlliflərin sayı}}+\begin{cases}3\text{ bal } (1\text{-ci müəllif});\\ 2\text{ bal } (2\text{-ci müəllif});\\ 1\text{ bal } (3\text{-cü müəllif});\\ 0\text{ bal } (\text{digər müəlliflər}).\end{cases}$$

Tək müəllifili məqalələrə istinadlar 30 balla qiymətləndirilir.

***Əlavə 3.*** "**Ən yüksək h-indeksli müəllif**" nominasiyası üzrə hər müəllifin h-indeks payının qiymətləndirilməsi (PQ) qaydası:

$$PQ=\frac{h-\text{indeks}}{h-\text{indeksi yaradan bütün müəlliflərin sayı}}\times 100.$$